# Bizi güclü edən milli-mənəvi dəyərlərimizdir

Azərbaycan Prezidenti gənclərlə, xüsusilə də elm və təhsil müəssisələrində keçirdiyi görüşlərdə vurğulayır ki, ölkədə tərbiyə işi yeni müstəviyə qalxmalı, ideoloji işə yenidən baxılmalıdır. Azərbaycanı istəməyən qüvvələr, o cümlədən erməni lobbi təşkilatları tərəfindən maliyyələşən qurumlar bundan istifadə edirlər: "Gənclər özləri də tarixi yaxşı bilməlidirlər. Əgər tarixi yaxşı bilsələr, görərlər ki, tariximizdə heç vaxt heç bir kənar qüvvə, heç bir yad dairə bizim xoşbəxtliyimizi istəməyib, əksinə, bizi əzmək istəyib, özünə ram etmək istəyib, sərvətlərimizi talamaq istəyib, bizi alçaltmaq istəyib. Təcrübə, bilik və gənclərin dinamizmi, novatorluğu, yeniliyə, islahatlara meyilliliyi - bu sintez Azərbaycanda var. Həm cəmiyyətdə, həm iqtidarda var. Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var. Bunu biz qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər. Yaşlılara hörmət olunmalıdır, yaşına görə. İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən "ağsaqqal", "ağbirçək" sözləri çıxsın, necə ki, bəzi ölkələrdə. Ona görə Azərbaycanda yaşlı nəsil, gənc nəsil bir yerdə olmalıdır, necə ki, ali məktəblərdə. Baxın, indi Bakı Dövlət Universitetində minlərlə gənc var, müəllim var. Müəllimlər biliklərini bölüşürlər, gənclər öyrənirlər, sabah onların yerini tutacaqlar. Belə inkişaf etməliyik..."

"Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq.

Azərbaycanda könüllülər hərəkatı da, bildiyimiz kimi, "ASAN xidmət"dən başlayıb. Bu gün bir çox sahələri əhatə edən bu xidmət növü də gənclərimizin nəyə qadir olduğunu ortaya qoyur.

Gənclər gələcəkdə elə çalışmalı və fəaliyyət göstərməlidirlər ki, onlara göstərilən etimadı doğrultsunlar, bunun da müqabilində ölkədə inkişaf dayanıqlı, dövlət müstəqilliyimiz əbədi olsun.

Bizi bir xalq, bir millət kimi əsrlər boyu assimilyasiyadan qoruyan milli dəyərlərimizdir.

Bizim hamımızın birinci vəzifəsi müstəqilliyimizi möhkəmləndirmək, Azərbaycan dövlətinin qüdrətini artırmaq və öz milli xüsusiyyətlərimizi qorumaqdır".

**"Qəbələ"**

# Ahıllar Günü

1990-cı il dekabrın 14-də BMT-nin Baş Assambleyası qətnamə qəbul edərək oktyabrın 1-nin Beynəlxalq Ahıllar Günü kimi qeyd olunmasını qərara alıb. Bu günü əvvəlcə Avropada, sonra Amerikada, ötən əsrin 90-cı illərinin axırlarında isə artıq bütün dünyada qeyd etməyə başlayıblar. Həmin günün təsis edilməsinin başlıca məqsədi ailə və icmaların, eləcə də, cəmiyyətin həyatında ahıl və yaşlıların iştirakını fəallaşdırmaq, onların hüquq və ehtiyaclarını diqqətə çatdırmaqdır.



Ölkəmizdə ahıllar dövlət qayğısı ilə hərtərəfli əhatə olunublar. Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunda qeydiyyatda olan əmək pensiyaçılarına həmişə qayğı ilə yanaşılır.

Bu gün əsaya söykənə-söykənə küçədə gedən, parkda əyləşib öz həmyaşıdları ilə ömrün gündoğanında qalan mürgülü xatirələri təzədən çözələyən, nuru azalmış gözləri ilə dünyamıza tamaşa edən ahılların bayramıdır. Həm də onlara yardım göstərmək, əl uzatmaq, insan hənirinə, övlad nəfəsinə qəribsəyən qapıların döymək, ot basmış cığırlarla yaşadıqları ünvana üz tutmaq, könülləri sevindirmək, ürəklərinə ümid işığı səpmək, təsəlli vermək yalnız Ahıllar günündə deyil, hər gün üçün xarakterikdir. Onları hər gün ziyarət etmək, hər an yada salmaq lazımdır. Çünki bu günün gəncliyi sabahın ahıllarıdır. Bu həyatın bir qanunudur.

**"Qəbələ"**

# İdman xəbərləri

## Mini-futbol üzrə rayon yarışı

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyinin dəstəyi ilə və Qəbələ rayon Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə 25 sentyabr 2020-ci il tarixdə Qəbələ şəhər 5 saylı tam orta məktəbin idman meydançasında mini-futbol üzrə "Könüllülər kuboku" yarışı keçirilmişdir.

Yarışın keçirilməsində məqsəd gənclər arasında sağlam həyat tərzi və idman yarışları vasitəsilə sosial fəaliyyətin artırılması, futbol idman növünün geniş yayılmasına nail olmaq, bu idman növü üzrə ustalığın artırılması və həmçinin "Könüllülər Kuboku" rayonda gənclərimizin asudə vaxtlarının səmərəli təşkil edilməsi, narkotik və psixatrop maddələrdən, eləcə də digər pis vərdişlərdən uzaq olmaları, sağlam həyat tərzi və idmana marağının artırılması məqsədilə keçirilir.

Yarışlar COVID-19 pandemiyası ilə bağlı Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargahın tələblərinə uyğun olaraq keçirilib.

Yarışın açılış mərasimində Gənclər və İdman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək yarışın məqsəd və vəzifələri haqqında məlumat vermiş, ölkəmizdə idmana göstərilən hərtərəfli dövlət qayğısından söhbət açaraq komandalara uğurlar arzulamışdır.

Yarışda iştirak edən 6 komanda Olimpiya sistemi (uduzub-çıxma) üzrə mübarizə aparmış və yekunda Qəbələ şəhər 5 saylı tam orta məktəbin komandası I yeri, Qəbələ şəhər 4 saylı tam orta məktəbin komandası II yeri və Mirzəbəyli kənd tam orta məktəbin komandası III yeri tutmuşlar.

Yekunda qalib komandalara Gənclər və İdman idarəsinin diplomları təqdim edilmişdir.

**Müşfiq ABBASOV,**
**gənclər və idman idarəsinin rəis müavini.**

# Koronavirusun planetə müsbət təsiri

Alman alimləri aydınlaşdırmışlar ki, COVID-19 pandemiyası fonunda Yer atmosferinə karbon tullantıları 8 faiz azalmışdır. Bu barədə "Remote Sensing" jurnalı xəbər verir.

Jurnalın yazdığına görə, Almaniyadakı Karlsrue Texnologiya İnstitutunun mütəxəssisləri müəyyənləşdirmişlər ki, dünyada insanlar avtomobillə daha az hərəkət etməyə və təyyarədə uçmağa başlamışlar. Bununla belə, atmosferdə karbon dioksidin sıxlığı eyni səviyyədə qalmışdır, çünki onu azaltmaq üçün onilliklər lazımdır. Alimlərin hesablamalarına görə, tullantıların illik 8 faiz azalması ilə sıfır göstəricini yalnız 2055-ci ildə əldə etmək mümkündür.

# Koronavirus və qrip ikiqat təhlükədir

İnsan eyni vaxtda həm mövsümi qripə, həm də koronavirusa yoluxsa, ölüm riski iki dəfə artar. Bu barədə Böyük Britaniya mətbuatı xəbər verir.

Mütəxəssislər cari ilin yanvar-aprel aylarında xəstəxanada müalicə almış xəstələrin xəstəlik tarixçələrini təhlil etmişlər. Məlum olmuşdur ki, ikili infeksiyanın mövcudluğu 43 faizlik, yalnız koronavirusun mövcudluğu 23 faizlik ölüm səviyyəsi vermişdir.

Bu arada Dyuk Universitetində aparılmış araşdırma göstərmişdir ki, denge qızdırması xəstəliyi tutub sağalmış insanlar koronavirusa qarşı immunitetli ola bilərlər. Alimlər belə bir nəticəyə Braziliyada koronavirus infeksiyası hallarının yayılması coğrafiyasını 2019-2020-ci illərdə ayrı ölkədə denge qızdırmasının yayılması coğrafiyası ilə müqayisə edərək gəlmişlər. Məsələn, koronavirus infeksiyasının daha az yayıldığı bölgələrdə bu il və keçən il denge qızdırması tüğyan etmişdir. Alimlərin fikrincə, bu müşahidə göstərir ki, denge ilə yeni tip koronavirus arasında qarşılıqlı immunoloji əlaqə var, hərçənd bunu heç kim ehtimal edə bilməzdi, çünki iki virus tamamilə fərqli ailələrə mənsubdur. Əgər bu həqiqətdirsə, onda denge qızdırmasının özü və ya denge əleyhinə immunizasiya koronavirusa qarşı qoruyucu tədbir olar.

Xatırladaq ki, denge qızdırması mığmığa sancması ilə ötürülən kəskin virus xəstəliyidir. Xəstəliyin müalicəsi adətən 2-7 gün çəkir. Denge daha çox Cənubi və Cənub-Şərqi Asiya, Afrika, Okeaniya və Karib dənizi ölkələrində müşahidə olunur.


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.



«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Bum kənd sakini **Ağamoğlanova Səkinə İsbəndiyar qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 212 nömrəli (kod 40600038) **torpağın mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.


Redaktor
Azad Məmmədov.

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydden keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində Kərimli Etibar Ələsgər oğlu Unibank CB mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1500*